# FairWild Standartı

## Versiya 2.0

**26 Avqust 2010-cu ildə FairWild İdarə Heyəti tərəfindən təsdiq olunmuşdur**

**Tibbi və ətirli yabanı bitkilərin davamlı şəkildə toplanması üzrə 2007-ci IL Versiya 1.0 Beynəlxalq Standartı (ISSC-MAP), və 2006-cı il versiya 1 FairWild standartlarını özündə cəmləşdirir.**



**Üz səhifədəki şəkillər:** Michler, Pätzold, Cunningham, Cunningham (top)
Strohbach, Schippmann, Schippmann (bottom)

**Bu sənəd və bu standartla əlaqəli digər sənədlər** FairWild internet səhifəsində yerləşdirilmişdir: www.FairWild.org.

**Əlavə məlumat üçün əlaqə nömrələri**:

FairWild Təşkilatının Katibliyi
CH-8570 Weinfelden, Weststr. 51
İsveçrə
Tel: +41-(0)71-626 0 626
Fax: +41-(0)71-626 0 623
e-mail: info@FairWild.org

**FairWild Standartları üzrə iradlar:** Versiya 2.0 iradları qəbul edir. Zəhmət olmasa, birbaşa suallar və iradlarınızı bu adresə göndərin: info@FairWild.org

**İstinad olunub:** FairWild Fondu. 2010. *FairWild Standart: Versiya 2.0.* FairWild Fondu, Weinfelden, İsveçrə.

**© FairWild Fondu, İsveçrə**

**Bu sənədin** tədris və ya digər qeyri-kommersiya məqsədləri, həmçinin FairWild Standartının istifadəçilərinin daxili istifadəsi üçün, mənbəyi göstərilmək şərtilə müəlliflik hüququ olan şəxsin əvvəlcədən yazılı icazəsi olmadan belə təkrar nəşrinə icazə verilir.

Müəlliflik hüququ olan şəxsin yazılı icazəsi olmadan bu sənədin satış və ya digər kommersiya məqsədləri üçün təkrar nəşri qadağandır.

**Minnətdarlıq**

FairWild Standartı: Versiya 2.0 –nin hazırlanması bir çox təşkilatların və fərdlərin yabanı bitki tədarükü ehtiyatlarının ticarət davamlılığının nəzərdən keçirilməsi üçün biliklərin, vaxtın və təcrübələrin paylaşılması, səylərin birləşdirilməsi yolu ilə əmələ gəlmişdir.

Təkmilləşdirmə prosesi Təbiəti Mühafizə üzrə Alman Federal Agentliyinin (Bundesamt für Naturschutz, BfN) və WWF Almaniyanın böyük maliyyə dəsətəyi ilə mümkün olmuşdur. Biz FairVild standartlarının işlənib hazırlanması və performans göstəricilərinin sınaqdan keçirilməsi üçün əməkdaşlığına görə Marketekoloji İnstitutunun işçi heyətinə, həmçinin bu standartlara töhfə verən və bir çox seminarlara ev sahibliyi etdiyinə görə Təbiəti Mühafizə üzrə Beynəlxalq Akademiyaya (Isle of Vilm, Almaniya) minnətdarıq.

Bu Standartın sahə sınaqları İqtisadi Əməkdaşlıq və İnkişaf üzrə Alman Federal Nazirliyi (Bundesministerium Für Wirtschaftliche Zusammenarbeit, BMZ), AB-Çin Biomüxtəliflik Layihəsi (ECBP), İsveçrə Dəstəkləmə Proqramı (SIPPO), WWF Almaniya, Ənənəvi Təbabət, Martin Bauer GmbH & Co., Forum Essenzia e.V., ProFound, Kuendig AG, Bahnhof-Apotheke Kempten, IUCN Cənubi Amerika, IUCN/SSC Tibbi Bitkilərin Mütəxəssis Qrupu, Hindistanda yerləşən Yerli Səhiyyə Şəraitinin Yenidən Canlandırılması üzrə Fond (FRLHT), Nepalda yerləşən Dağ rayonlarının kompleks mənimsənilməsi üzrə Beynəlxalq Mərkəz (ICIMOD) və TRAFFİC tərəfindən dəstəklənən layihələrin təcrübələrindən faydalanıb. FairWild Fondu cəmiyyətlərlə, toplayıcı kooperativləri, tədqiqat institutları, hökumət agentlikləri, yabanı bitki məhsulların emalı və satışı və onların toplanmasına cəlb olunmuş təşkilatlar ilə birgə işləyib. Onların yenidən işlənmə prosesinə əhəmiyyətli töhfələri çox yüksək qiymətləndirilir.

Yenidən işlənmə prosesi FairWild Fondu Qəyyumlar Şurasının rəhbərliyi əsasında FairWild Fondunun Texniki Komitəsinin üzvləri tərəfindən həyata keçirilmişdir.

**Mündəricat**

Minətdarlıq

Minnətdarlıq ........ I
Mündəricat ........ II
1 GİRİŞ ........ 1
1.1 Tətbiqi və Məqsədi ........ 1
1.2 FairWild Standartı: Versiya 2.0-ın strukturu ........ 3
2 FairWild StandarTI: VersiYA 2.0 ........ 4
2.1 FairWild Prinsipləri və Yığım İşləri üçün meyarlar ........ 4
1-ci HİSSƏ: YABANI MƏHSULLARIN YIĞIMI VƏ MÜHAFİZƏ TƏLƏBLƏRİ ........ 4
2-cü HİSSƏ: HÜQUQİ VƏ ETİK TƏLƏBLƏR ........ 4
3-cü HİSSƏ: SOSİAL VƏ ƏDALƏTLİ TİCARƏT TƏLƏBLƏRİ ........ 5
4-cü HİSSƏ: MENECMENT VƏ BİZNES TƏLƏBLƏRİ ........ 6
2.2 FairWild Prinsipləri və toplanmış yabanı məhsullarn alıcıları üçün meyarlar. ........ 6
İstİnadlar ........ 7
ƏLAVƏ 1. AKRONİMLƏR VƏ İXTİSARLAR ........ 8

# 1 GİRİŞ

## 1.1 Tətbiqi və Məqsədi

FairWild Standartları: Versiya 2.0 sosial məsuliyyəti və ədalətli ticarət prinsiplərini nümayiş etdirmək məqsədilə yabanı bitkilərin toplanması işlərinə tətbiq edilir. Bu Standart dərman və ətirli yabanı bitkilərin toplanmasının davamlılığı üçün Beynəlxalq Standartı (ISSC-MAP) Versiya 1.0, 2007 və FairWild standartları versiya 1-i (MEINSHAUSEN, 2006) yabanı bitkilərin dayanıqlı toplanması üçün FairWild standartı şəklində özündə cəmləşdirir.

FairWild Standartının məqsədi yabanı bitkilərin öz yayılma areallarında uzun müddətli və davamlı istifadısinə əmin olmaq, eyni zamanda yerli adət-ənənə və mədəniyyətə hörmətlə yanaşmaq**,** maraqlı tərəflərin xüsusilə toplayıcı və işçilərin maddi təminatlarına dəstək verməkdir.

Təbii məhsullara tələbatın artdığı bir zamanda ərzaq, qida, kosmetika, və dərman məhsullarının tərkibi baxımından iri ekoloji və sosial tələblər ortaya çıxır. Cari və inkişafda olan sənayeninin yabanı resurslara güclü təsiri populyasiya və növlərin yaşayış mühiti və yerli ekosistem üçün təhlükə yaradır.

Hökumətlər, sahibkarlar və istehlakçılar etiraf edirlər ki, yabanı resursların azalması və itirilməsi geniş miqyasda səhiyyə və iqtisadiyyat üçün təhlükə doğurur və adətən ***hədəf*** ölkələrdə ən kasıb sosial qruplara aid olan yığıcıların yaşayış şəraitini sarsıdır. Bunu üçün ekoloji, sosial və iqtisadi məqsədlər uyğunlaşdırılmalı və yabanı bitkilərin toplanmasının davamlılığını təmin etmək üçün ən yaxşı təcrübələr müəyyən edilməlidir. FairWild Standartı bu tələblərə cavab vermək üçün tərtib edilmişdir.

FairWild Standartı bir tərəfdən mövcud geniş mühafizə təlimatları və etik kodekslər arasında, digər tərəfdən isə xüsusi növlər üçün yığım işlərinin idarəetmə planı ilə arasında yerli vəziyyət arasındakı boşluğu aradan qaldırır. FairWild Standartı prinsiplərinin qəbulu və meyarların tətbiq edilməsi özəl şirkətlərə, hökumət təşkilatlarına, tədqiqat mərkəzlərinə və icmalara yabanı bitkilərin toplanması davamlılığının on bir əsas elementi üçün ən yaxşı təcrübələrin müəyyən edilməsinə və izlənilməsinə kömək edir:

1. Yabanı bitki resurslarının qorunması
2. Ətraf mühitə mənfi təsirlərin qarşısının alınması
3. Qanunlara, qaydalara və razılaşmalara əməl olunması
4. Ənənəvi qaydalar hörmət və gəlirlərin düzgün bölgüsü
5. Operatorlar və toplayıcılar arasında ədalətli müqavilə münasibətlərinin dəstəklənməsi
6. Yabanı bitkilərin toplanması işlərində uşaqların iştirakının məhdudlaşdırılması
7. Toplayıcılar və onların icmaları üçün gəlirlərin təmin edilməsi
8. Yabanı bitkiləri toplayan bütün işçilər üçün münasib iş şəraitlərinin təmin edilməsi
9. Məsul idarəetmə təcrübələrinin tətbiqi
10. Məsul biznes təcrübələrinin tətbiqi
11. Alıcı öhdəliklərinin dəstəklənməsi

FairWild Standartı Versiya 2.0-nin əhatə dairəsi: yabanı şəkildə yığılan bitkilərdən hazırlanan dərmanların və digər botaniki məhsulların komponentlərini əhatə edir:

- ✓ Təbii yaşayış mühitlərindən toplanmış bitkilər, bitki hissələri və bitki məhsulları
- ✓ Təbii yaşayış mühitlərindən toplanmış göbələk və şibyələr

FairWild Standartının əhatə dairəsi (məs: əslinə uyğun becərilmiş, təbiiləşdirilmiş, təcavüzkar və ya yenidən təqdim edilmiş növlər kimi) xaricindəki növlərə tətbiq edilə bilməsi, müxtəlif vəziyyətlərə uyğun müəyyən edilməlidir[1]. Heyvan və heyvan məhsulları məsələn arı və mum istisna edilir.

FairWild Standartı yabanı bitki resurslarının yığımı həyata keçirilən geniş miqyaslı coğrafiya, ekologiya, mədəniyyət, iqtisadiyyat və ticarət şəraitlərində tətbiq edilə bilinməsi üçün tərtib edilmişdir. Burada, yabanı bitki məhsullarının kiçik miqyaslı yerli istifadə və dolanışıq vasitəsi kimi deyil, əsasən kommersiya məqsədli yığımına ünvanlanır.

FairWild Standartı yabanı bitki növlərinin və onların yayılma areallarının idarə edilməsinə tətbiq oluna biləcək prinsip və meyarların strukturlarını müəyyənləşdirir hansılar ki, sosial məsuliyyətlilik təcrübələrini irəli çəkir. FairWild Fondu bilir ki, yabanı bitki resurslarının davamlılığı üzərində əhəmiyyətli müsbət təsir yaratmaq və geniş miqyaslı səhiyyə və yaşayış üçün yabanı bitki növlərinin istifadəsinin davamlılığından asılı olan faydaları dəstəkləmək məqsədilə müxtəlif icra yanaşmaları tələb olunur (Diaqram 1). Bu FairWild prinsipləri və meyarları aşağıdakılar üçün istifadə edilə bilər:

- Resursların idarə olunması üçün təlimat təchizatı
- Mövcud əsasnamə və qanunların icrasının dəstəklənməsi (məs: milli təhlükəsizlik və ətraf mühit tələbləri və beynəlxalq konvensiyalarda milli öhdəliklər kimi)
- Daxili monitorinq və hesabatvermədə baza olaraq xidmət göstərmək (təcrübənin könüllülük kodeksi) üçün əsas rolunu oynayır (təcrübənin könüllü kodeksləri)
- FairWild–in sertifikatlaşdırma sistemini dəstəkləmək.




**Diaqram 1. FairWild Standardı: Versiya 2.0 üçün icra yanaşmaları**

[1] Daha geniş təlimatlar üçün FairWild fondunun internet səhifəsindən (www.FairWild.org) istifadə edə bilərsiniz və ya sifariş (info@FairWild.org) verə bilərsiniz .

FairWild Standartı inkişafda olan sənəddir. Standartın periodik olaraq yenilənməsi onun icrasındakı təcrübələrə və maraqlı tərəflərlə ictimai məsləhətləşmələrə əsaslanacaq.

## 1.2 FairWild Standartı: Versiya 2.0-ın strukturu

FairWild Standartının 2.0 Versiyası Cədvəl 1-də göstərilən bölgü əsasında komponentlərin funksional ierarxiyasını izləyir.

**Cədvəl 1. Standart komponentlərinin funksional fərqləri**

| Element | Təsvir |
|---|---|
| Standart | İdarəetmə üzrə qabaqcıl təcrübələrin qavranılması, icrası və ya qiymətləndirilməsi üçün tərtib edilmiş qaydalar toplusudur. |
| Prinsip | Əsaslandırma və fəaliyyətə əsaslanan başlıca qanun və qayda. Prinsiplər məqsədi əks etdirən aşkar elementləridir. |
| Meyar | Prinsiplərə sadiq qalmaq şərtilə hər hansı proses və yaxud sistemin vəziyyətini və yaxud aspektini əks etdirir. Meyarların yaranması üsulları faktiki vəziyyətdə uyğunluq dərəcəsini əks etdirməlidir. |
| Göstərici | Fəaliyyətlətin meyarlara uyğunluğunu qiymətləndirmək üçün kəmiyyət və keyfiyyət parametrləri yoxlanıla bilər. FairWild sistemində hər bir göstərici (nəzarət nöqtəsi) nəzarət prosesinin asanlaşdırılması məqsədilə uyğunluğun müxtəlif dərəcələrini göstərir və tədricən irəliləyişin nümayiş etdirilməsinə şərait yaradır. |

LAMMERTS VAN BUEREN və BLOM (1997) tərəfindən qəbul edilmişdir

*FairWild Standartı: Versiya 2.0–ın yabanı məhsulların toplanmasının davamlılığı üzrə ekoloji, sosial və iqtisadi tələbləri əks etdirən 11 prinsip və 29 meyarı var. Bunların siyahısı sənədin 2-ci fəslində verilmişdir. FairWild Standartının prinsip və meyarlarının icrasındakı irəliləyişlərin qiymətləndirilməsi üçün nəzarət nöqtəsi rolunu oynayan performans göstəriciləri isə digər məlumat sənədində (FWF 2010b) göstərilmişdir. Bu göstəricilər yoxlama və daxili audit, həmçinin FairWild fondunun akkreditasiya etdiyi müstəqil təşkilatlar tərəfindən sertifikatlaşdırma prosesi üçün əsas rolunu oynayır. Təfsilatlı xarici nəzarət prosedurları, sertifikatlaşdırma üçün minimum tələblər, məhsulun etiketi üzərindəki məlumat və FairWild loqotipinin istifadəsinə dair məlumat FairWild Fondundan əldə edilə bilər.*

# 2 FAIRWILD STANDARTI: VERSIYA 2.0[2]

## 2.1 Yığım İşləri üçün FairWild Prinsip və Meyarları

| 1-ci HİSSƏ: YABANI BITKİLƏRİN TOPLANMA VƏ MÜHAFİZƏ TƏLƏBLƏRİ | |
|---|---|
| **Prinsip 1. Yabanı bitki ehtiyatlarının qorunması**<br>*Yabanı bitki ehtiyatlarının yığımı elə miqyasda, dərəcədə, və üsulda aparılmalıdır ki, uzun müddət ərzində bitki populyasiya və növləri qorunsun.* | |
| 1.1 | **Müəyyən edilmiş növün mühafizəsinin statusu**<br>Müəyyən edilmiş növün və populyasiyanın mühafizəsinin statusu dəyərləndirilir və mütəmadi olaraq gözdən keçirilir. |
| 1.2 | **Biliyə əsaslanan yığım təcrübələri**<br>Yığım və idarəetmə təcrübələri hədəf növlərin və yığım təsirlərinin adekvat olaraq müəyyənləşdirilməsi, xəritəçəkilməsi, inventarlaşdırılması, dəyərələndirilməsi və monitorinqinə əsaslanır. |
| 1.3 | **Yığım normasının dayanıqlığı**<br>Hədəf ehtiyatların (bitki) yığım norması (intensivliyi və tezliyi) uzunmüddət ərzində həmin növlərin regenerasiya qabiliyyətindən çöx olmamalıdır. |

| **Prinsip 2. Ətraf mühitə mənfi təsirlərin qarşısının alınması**<br>*Yığım işlərinin digər yabanı növlərə, qonşu ərazi və ya yığım ərasinə təsirinin qarşısı alınmalıdır.* | |
|---|---|
| 2.1 | **Həssas takson və yaşayış mühitləri**<br>Yığım üçün müəyyən edilmiş növlər arasında yığım tərəfindən təsir görə biləcək **nadir** və **təhlükəyə məruz qalmış** növlər müəyyənləşdirilməli və qorunmalıdır. |
| 2.2 | **Yaşayış mühitinin (landşaft səviyyəsində) idarə olunması**<br>Yabanı bitki növlərinin yığımını dəstəkləyən idarəetmə fəaliyyətləri ekosistemin biomüxtlifliyinə, proseslərə və funksiyalara mənfi təsir göstərmir. |

| 2-cü HİSSƏ: HÜQUQİ VƏ ETİK TƏLƏBLƏR | |
|---|---|
| **Prinsip 3. Qanunlar, Qaydalar və Sazişlərə tabe olmaq**<br>*Yığım və idarə etmə fəaliyyətləri qüvvədə olan razılaşmalar əsasında və müvafiq qanun, qayda və sazişlərə uyğun həyata keçirilməlidir.* | |
| 3.1 | **Sahiblik, rəhbərlik səlahiyyətləri və istifadə hüquqları**<br>Toplayıcılar və menecerlər müəyyən edilmiş resursları istifadə və idarə etmək üçün şəffaf və bilinən hüquqa və səlahiyyətə malikdirlər. |
| 3.2 | **Qanunlar, qaydalar və inzibati tələblər**<br>Müəyyən edilmiş resurslarının yığımı və idarə olunması mühafizə olunan növlər və ərazilərə aid tələblər də daxil olmaqla bütün beynəlxalq razılaşmalara, milli və yerli qanunlara, qaydalara və inzibati tələblərə cavab verməlidir. |

| **Prinsip 4. Ənənəvi hüquqlara hörmət və mənfəətin birgə istifadəsi**<br>*Yerli icmalar və məskunlaşmış əhalinin yığım ərazilərinin və toplanmış yabanı bitki resurslarının istifadəsi və idarə olunması üzrə istehlakçı hüquqları tanınmalı, hörmət göstərilməli və qorunmalıdır.* | |
|---|---|
| 4.1 | **Ənənəvi istifadə və təcrübə, istifadə hüquqları və mədəni irs**<br>Qanuni, ənənəvi və ya istifadə hüquqlarına mailk yerli icmalar və məskunlaşmış əhali yığım işləri prosesində öz hüquqlarını, ənənəvi biliklərini və ya resursları qorumaq üçün zəruri dərəcədə nəzarəti özündə saxlayır. |
| 4.2 | **Mənfəətin bölgüsü** |

[2] FairWild Standartı: Versiya 2.0 –da istifadə edilmiş terminlərin lüğəti performans göstəriciləri ilə birlikdə digır məlumatverici sənəddə (FWF 2010b) göstərilişdir.

| | |
|---|---|
| | Yerli icmalar və məskunlaşmış əhali ilə razılaşmalar müəyyənləşdirilmiş ehtiyatların sahiblik hüququ, istifadə hüquqları, idarə edilməsi tələbləri üzrə müvafiq və adekvat biliyə əsaslanır. Razılaşmalar cəlb olunmuş bütün tərəflərin maraqlarının ədalətli və bərabərhüquqlu bölgüsünü təmin etməlidir. |

## 3-cü HİSSƏ: SOSİAL VƏ ƏDALƏTLİ TİCARƏT TƏLƏBLƏRİ

| | |
|---|---|
| **Prinsip 5. Əməliyyatçılar və Toplayıcılar arasında ədalətli müqavilə münasiblərinin dəstəklənməsi**<br>*Toplayıcılar öz maraqlarını ifadə etmək və FairWild tərəfindən mükafatların verilməsi prosesində iştirak etmək üçün zəruri informasiyaya çıxışa və struktura mallikdir. Toplayıcılar kimi spesifik qruplara qarşı heç bir ayrı-seçkilik yoxdur.* | |
| 5.1 | **Müvafiq müqavilə münasibətləri**<br>Şirkət və toplayıcılar arasında iqtisadi münasibətlər ədalətli və şəffaf olmalıdır və toplayıcılara mükafatdan istifadə hüququ və qiymət razılaşmaları kimi vacib qərarların qəbul edilməsində onlara şərait yaratmalıdır. |
| 5.2 | **Toplayıcılara qarşı ayrı-seçkiliyin olmaması**<br>Toplayıcılara qarşı irq, rəng, etnik mənşə, din, seksual və ya siyasi fikrinə əsaslanan heç bir ayrı-seçkilik yoxdur və qadınlar da qeydə alınmış toplayıcılar kimi işə həvəsləndirilir. |

| | |
|---|---|
| **Prinsip 6. Yabanı bitkilərin toplanması işlərində uşaqların iştirakının məhdudlaşdırılması**<br>Toplayıcılar tərəfindən toplama və emal işləri uşaqların iştirakı olmadan həyata keçirilir. | |
| 6.1 | **Uşaqlar və gənc toplayıcılar**<br>Uşaqlarla toplayıcı müqavilәsi bağlanılmır. Gənc toplayıcılar hec vaxt təhlükəli işlərə cəlb olunmur. |
| 6.2 | **Yabanı bitkilərin toplanması işləri üçün uşaqlarla müqavilə bağlayan toplayıcılar**<br>Toplayıcılar yığım və emal zamanı özlərinə köməkçi olaraq uşaqlarla müqavilə bağlamırlar. |
| 6.3 | **Yabanı bitkilərin toplanması işində öz valideynlərinə kömək edən uşaqlar**<br>Uşaqlar yığımda yalnız nəzarət altında və çox məhdud iş görürlər |

| | |
|---|---|
| **Prinsip 7. Toplayıcılar və onların icmaları üçün gəlirlərin təmin edilməsi**<br>*Ticarət vasitəçilərinin sayı azaldılır, toplayıcılar üçün toplanan mallar üzrə ədalətli qiymət təmin edilir və icmaların sosial inkişafı FairWild Mükafat fondunun vasitəsi ilə dəstəklənir* | |
| 7.1 | **Ədalətli qiymətləndirmə və yığıcılar üçün ödəniş**<br>Yığım işləri, şəffaf qiymət hesablamalarını, qiymətləndirmə qərarlarında toplayıcıların cəlb olunmasını, ticarət zəncirinin qısa olaraq təmin edilməsini və toplayıcılara vaxtında ödənişlərin edilməsini tələb etməklə uzunmüddətli dövrdə toplayıcılara ödənən ədalətli qiymətləri təmin edir. |
| 7.2 | **FairWild Mükafatının istifadəsi və idarə edilməsi**<br>FairWild –dan hər hansı mükafatın verilməsi mükafat fondu tərəfindən şəffaf şəkildə nəzarət olunur və vəsaitin istifadəsi ilə bağlı qərarlar toplayıcıların təşkilatı, nümayəndə komitəsi və yaxud FairWild mükafat şurası tərəfindən qarışıq tərkibdə təyin olunmuş tərəfdaşlar tərəfindən müəyyən olunmuş qaydada verilir. |

| | |
|---|---|
| **Prinsip 8. Yabanı bitkiləri toplayan işçilərin münasib iş şəraiti ilə təmin edilməsi**<br>*Yığım əməliyyatları bütün yabanı bitkilərin toplayıcıları üçün yaxşı iş şəraiti təmin edir.* | |
| 8.1 | **Yabanı məhsulların yığımı ilə məğul olan işçi heyətinin başlıca əmək hüquqları**<br>Yabanı yığım işləri bütün işçilərin başlıca insan dəyərlərinə və hüquqlarına hörmət edir. |
| 8.2 | **Yabanı məhsulların yığımı ilə məğul olan işçi heyətinin təhlükəsiz iş mühiti**<br>Təhlükəsiz və gigiyenik iş mühiti müasir sənaye biliklərini və hər bir xüsusi təhlükələri nəzərə alaraq təmin edilməlidir. |
| 8.3 | **Yabanı məhsulların yığımı ilə məğul olan işçi heyətinin münasib məşğulluq şəraiti**<br>Yabanı yığım operatoru özünü sosial məsuliyyətli işə götürən kimi aparır və yaxşı məşğulluq şəraitini təmin edir. |

| 4-cü HİSSƏ: IDARƏ ETMƏ VƏ BİZNES TƏLƏBLƏRİ | |
|---|---|
| **Prinsip 9. Məsuliyyətli idarəetmə təcrübəsinin tətbiq edilməsi**<br>Müəyyən edilmiş yabanı növlərin yığımı uyğunlaşabilmə, praktiki, iştirakçılıq və şəffaf idarəetmə təcrübələrinə əsaslanmalıdır. | |
| 9.1 | **Növlər/ərazi idarəetmə planı**<br>Növlər/ərazi idarəetməsi planı uyğunlaşabilən, praktik idarəetmə proseslərini və yaxşı yığım təcrübələrini təyin edir. |
| 9.2 | **İnventarlaşdırma, dəyərləndirmə və monitorinq**<br>Yabanı məhsulların yığımının idarəedilməsi ehtiyatların adekvat və praktik inventarına, dəyərləndirilməsinə və yığım təsirlərinin monitorinqinə əsaslanır. |
| 9.3 | **Toplayıcılar tərəfindən davamlı yığım ölçülərinin icrası**<br>Yabanı bitkilərin toplanması operatoru əmin edir ki, yalnız təlim keçmiş və səlahiyyətli toplayıcıların əvvəlcədən müəyyənləşdirilmiş hədəf bitkiləriu toplayacaq və toplayıcılar tərəfindən yığım göstərişlərinin icrasının effektivliyinin monitorinqi həyata keçirləcəkdir. |
| 9.4 | **Təlim və iş potensialının gücləndirilməsi**<br>Resursları idarə edənlərin və toplayıcıların bacarıqları (treyninq, nəzarət, təcrübə) idarə etmə planın göstərişlərini icra etmək üçün müvafiq tələblərə cavab verir və Standartın tələblərinə tam uyğundur. |
| 9.5 | **Şəffaflıq və iştirak**<br>Yabanı bitkilərin toplanması işləri idarəetmənin planlaşdırılması və icrası, məlumatların qeydiyyatı və bölüşdürülməsi və maraqlı tərəflərin cəlb olunması üzrə şəffaf şəkildə həyata keçirilir. |

| **Prinsip 10. Məsul biznes təcrübələrinin tətbiqi**<br>*Yabanı məhsulların yığımı resursların davamlılığını qurban verməmək şərtilə bazarın keyfiyyət, maliyyə və izlənəbilmə tələblərini dəstəkləmək üçün həyata keçirilməlidir.* | |
|---|---|
| 10.1 | **Bazarın / alıcıların spesifikasiyaları**<br>Toplanmış məhsulları arzuolunmaz satışının qarşısını almaq və ya minimum endirmək üçün toplama işlərinin davamlılığı və hədəf resursların idarəolunması bazar tələblərinə uyğun həyata keçirilir. |
| 10.2 | **Nəzarətetmə prosesi**<br>Təyin olunmuş resursların saxlanması və idarə olunması toplama məntəqələrindən satış mərhələsinə qədər nəzarətetmə prosesinin təmin edilməsi ilə idarə olunur. |
| 10.3 | **Maliyyə davamlılığı və ticarət münasibətlərinin nəzərdən keçirilməsi**<br>Təyin olunmuş mənbələrdən yabanı məhsulların davamlı şəkildə toplanılması üzrə sistemlərin maliyyə davamlılığını təmin etmək üçün mexanizmlər hazırlanır. |

## 2.2 FairWild Prinsipləri və toplanmış yabanı məhsullarn alıcıları üçün meyarlar.

| **Prinsip 11. Alıcıların öhdəliklərinin dəstəklənməsi**<br>*Toplanmış yabanı məhsulların alıcısı (məs: idxal edən) yabanı bitkilərin toplanması işlərinə hörmət, şəffaflıq və təchizatçıya keyfiyyət cəhətdən dəstək vermək yoluyla qarşılıqlı, faydalı və uzunmüddətli ticarət əlaqələrinə səy göstərir.* | |
|---|---|
| 11.1 | **Qarşılıqlı faydalı ticarət əlaqələri**<br>Yabanı məhsulların alıcıları təchizatçılarla uzunmüddətli ədalətli ticarət əlaqələrinin qorunmasına can atır, informasiya, təlim və əlverişli ticarət şəraiti vasitəsilə təchizatçıları dəstəkləyir. |
| 11.2 | **Ədalətli qiymətlər və FairWild mükafatı**<br>Toplanmış yabanı məhsulların alıcısı toplayıcı icmalarının sosial inkişafını dəstəkləmək məqsədilə məhsulu əlverişli qiymətlərlə alır və FairWild–a müəyyən məbləğdə mükafat ödəyir. |

## İSTİNADLAR


FWF. 2010a. *FairWild Standartı: Versiya 2.0.* FairWild Fondu, Weinfelden, İsveçrə.

FWF. 2010b. *FairWild Standartı: Versiya 2.0. Performans göstəriciləri.* FairWild Fondu, Weinfelden, İsveçrə.

LAMMERTS VAN BUEREN, E.M., AND E.A. BLOM. 1997. *Meşələrin Dayanıqlı İdarəetmə Standartlarının tərtib edilməsinin iyerarxal çərçivə sənədi.* Tropenbos Fondu, Leiden, Hollandiya.

MPSG. 2007. *Tibbi və Ətirli Bitkilərin Yabanı halda Toplanmasının Dayanıqlığı üçün Beynəlxalq Standartlar* (ISSC-MAP). Versiya 1.0. Bundesamt für Naturschutz (BfN), MPSG/SSC/IUCN, WWF Almaniya, və TRAFFIC (BfN-Skripten 195), Bonn, Gland, Frankfurt, və Kembric.

MEINSHAUSEN F, S. WINKLER, R. BÄCHI, F. STAUBLI, AND K. DÜRBECK. 2006. *FairWild Standartları*, Versiya 1 (11/2006). FairWild Fondu, Weinfelden, İsveçrə.

## ƏLAVƏ 1. AKRONİMLƏR VƏ İXTİSARLAR

| | |
|---|---|
| ABS | Çıxışların və gəlirlərin bölgüsü |
| BfN | Bundesamt für Naturschutz / Təbiəti Mühafizə üzrə Alman Federal Agentliyi |
| BMZ | Bundesministerium Für Wirtschaftliche Zusammenarbeit / İqtisadi Əməkdaşlıq və İnkişaf üzrə Alman Federal Nazirliyi |
| CBD | Bioloji Müxtəliflik üzrə Konvensiya |
| CITES | Nəsli kəsilməkdə olan yabanı flora və fauna növlərinin beynəlxalq ticarəti üzrə Konvensiya |
| CSR | Korporativ Sosial Məsuliyyət |
| ECBP | AB-Çin Biomüxtəliflik Layihəsi |
| FWF | FairWild Fondu |
| FRLHT | Yerli Səhiyyə Şəraitinin Yenidən Canlandırılması üzrə Fond |
| GACP | Qabaqcıl Kənd təsərrüftaı və Toplama Təcrübələri |
| GMP | Qabaqcıl Emal Təcrübələri |
| GSPC | Bitkilərin Mühafizəsi üzrə Qlobal Strategiya |
| ICIMOD | Bütövlükdə Dağ İnkişafı üzrə Beynəlxalq Mərkəz |
| IMO | Marketekologiya İnstitutu |
| INGOs | Beynəlxalq Qeyri Hökümət Təşkilatları |
| ISSC-MAP | Tibbi və Ətirli Yabanı Bitkilərin Toplanmasının Dayanıqlığı üçün Beynəlxalq Standartlar |
| IUCN | Təbiəti Mühafizə üzrə Beynəlxalq Birlik |
| MAP | Tibbi və Ətirli Bitki |
| MPSG | IUCN/SSC –ın tibbi bitkilər üzrə mütəxəssis qrupu |
| İİDP | İsveçrə İdxalı Dəstəkləmə Proqramı |
| SSC | Növlərin Mühafizəsi Kommissiyası |
| UN | Birləşmiş Millətlər Təşkilatı |